### *Ayrılıq (Bağışla)*

Mən səndən ayrılıb düşsəm də yola,
Qəlbimdə ayrılıq, ürəkdə yara,
Biz gələ bilmədik qara bayrama,
Bağışla sən bizi, bağışla, bala...

Bürünür o yerlər dumana-çənə,
Tərki-Vətən olduq, düşdük bu günə,
Qayıda bilməsək qəbrin üstünə,
Bağışla sən bizi, ey şəhi bala.

Siz şəhid oldunuz vətən yolunda,
O ömrün ən gözəl gənclik çağında.
Bu bayram olmasaq qəbrin yanında,
Bağışla sən bizi, ey nakam bala.

Siz şəhid oldunuz torpaq uğrunda,
Qışın şaxtasında, boranda, qarda,
Fərqi yox, baharda, ya da payızda,
Biz borclu qalmışıq ruhun yanında.
Əgər qismət olsa gəlsək o yerə,
Gül-çiçək düzərik biz qəbirlərə.
Baş əyib deyərəm qəbrin önündə.
Bağışla sən bizi, bağışla, bala.

Çoxları qəlpədən aldılar yara,
Boyandı cəsədi torpağa, qana.
Sənin tək aldılar sinəndən yara,
Bağışla sən bizi, bağışla, bala!...

***Famil Abdinov.***
***şəhid Sərvər Abdinovun atası,***
***Zəngilan rayonu, Alıbəyli kənd sakini, qaçqın.***

Abdinov F. Ayrılıq (Bağışla) : şeir // Azərbaycan. – 1994. – 20 may.